

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 198 (23.109)

*18 oktyabr 2018-ci il, cümə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Görkəmli rəssam İbrahim Səfiyevin 120 illik yubileyinin keçirilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

2018-ci ildə görkəmli Azərbaycan rəssamı İbrahim Safinin (İbrahim Qafar oğlu Səfiyev) anadan olmasının 120 illiyi tamam olur.

İbrahim Səfiyev 1898-ci ildə Şərur rayonunda anadan olmuş, ilk təhsilini Cəlilkənd məktəbində almış, sonra İrəvan Müəllimlər Seminariyasında oxumuşdur. İki il Moskvadakı Rəssamlıq Akademiyasında təhsil alan İbrahim Səfiyev 1917-ci ildə Naxçıvana qayıtmış, burada rəssamlıqla məşğul olmuşdur. O, sonra Türkiyəyə getmiş, 1923-cü ildə İstanbulda İncəsənət Akademiyasını bitirmişdir. Həyatını sənətə bağlayan görkəmli rəssam ömrünün sonuna kimi Türkiyədə yaşamışdır.

İbrahim Səfiyev kiçik yaşlarından rəsmə həvəs göstərmiş, 12 yaşında "Araz balıqçıları" adlı ilk rəsm əsərini yaratmışdır. İbrahim Səfiyev yaradıcılığında realizmə üstünlük vermiş, dünya incəsənətinin mütərəqqi ənənələrini davam etdirmiş, boyakarlığın müxtəlif janrlarında ciddi yaradıcılıq uğurlarından xəbər verən sənət əsərləri yaratmışdır.

Azərbaycan rəsm sənətinin görkəmli nümayəndəsi İbrahim Səfiyevin adı əbədiləşdirilmiş, Türkiyə Respublikasının İstanbul şəhərindəki İstiqlal prospektində onun yaşadığı binanın üzərinə xatirə lövhəsi vurulmuşdur.

İbrahim Səfiyevin Azərbaycan və Türkiyədə rəssamlıq sənətinin inkişafındakı xidmətlərini nəzərə alaraq, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Görkəmli rəssam İbrahim Səfiyevin 120 illik yubileyi Naxçıvan Muxtar Respublikasında qeyd olunsun.

2. "Görkəmli rəssam İbrahim Səfiyevin 120 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 oktyabr 2018-ci il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Oktyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İsrailin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Dan Stavla görüşüb.

Ali Məclisin Sədri qonağı salamlayıb və onu yenidən Naxçıvanda görməkdən məmnunluğunu bildirib. Ölkələrimiz arasındakı münasibətlərdən bəhs edən Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafında İsrailin ölkəmizdəki səfirliyinin fəaliyyətini qeyd edib.

Naxçıvan Muxtar Respublikasına üçüncü dəfə səfər etdiyini bildirən Dan Stav səmimi qəbula görə minnətdarlıq edib. Diplomat muxtar respublikada əlaqələrin inkişafı üçün imkanların olduğunu bildirib və səfərin bu baxımdan əhəmiyyətini vurğulayıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Görkəmli rəssam: İbrahim Səfiyev



İbrahim Qafar oğlu Səfiyev 1898-ci ildə Şərurda doğulmuşdur. Atasını üç yaşında itirən İbrahim Səfiyev ilk təhsilini Cəlilkənd məktəbində almış, sonralar İrəvan Müəllimlər Seminariyasında oxumuşdur.

İbrahim Səfiyev kiçik yaşlarından rəsmə həvəs göstərmiş, 12 yaşında "Araz balıqçıları" adlı ilk rəsm əsərini çəkmişdir. İki il Moskvadakı Rəssamlıq Akademiyasında oxuyan İbrahim Səfiyev Rusiyadakı 1917-ci il hadisələrinə görə təhsilini yarımçıq buraxıb Naxçıvana qayıdır. Şərurda rəsm çəkib çörəkpulu qazanan İbrahim Səfiyev Birinci Dünya müharibəsi illərində Türkiyənin Qafqaz islam ordusunun tərkibində Türkiyəyə gedir və ömrünün sonuna qədər orada yaşayır.

İstanbulda İncəsənət Akademiyasına daxil olan İbrahim Səfiyev 1923-cü ildə buradan məzun olur və Türkiyənin məşhur rəssamı Namiq İsmayılın emalatxanasında işləyir. 1920-ci ildə Türkiyədə keçirilən Avropa rəssamlarının müsabiqəsində qalib olur və mükafat alır.

İbrahim Səfiyev 1924-cü ildən etibarən sərgilərdə iştirak etməyə başlayır. İkinci Dünya müharibəsinin başlanması ilə hərbi xidmətə çağırılan rəssam orduda qulluğunu tamamladıqdan sonra həmişəlik İstanbulda məskunlaşaraq həyatını sənətə bağlayır.

Türk rəsm sənəti tarixində özünəməxsus fəaliyyəti ilə tanınan rəssam iki il Münhendə olmaqla, 11 il Avropa ölkələrində yaşamışdır. Roma və Vyana şəhərlərində fərdi və qarışıq sərgilərdə iştirak edir. 1967-ci ilə qədər təkcə Marsiliyada 8 fərdi sərgidə əsərlərini nümayiş etdirir.

Rusiya Rəssamlıq Akademiyasında aldığı təhsil nəticəsində rəssamın əsərlərində rus rəssamlıq üslubu hiss olunur.

İbrahim Səfiyev İstanbulda Oda Kule İş Mərkəzinin sənət salonunda 1983-cü ilin yanvar ayının 4-də yüzüncü fərdi sərgisinin açılışı keçirildikdən sonra axşam saatlarında vəfat etmişdir.

Müxtəlif sənət cərəyanlarına yaxından bələd olan İbrahim Səfiyev yaradıcılığında realizmə üstünlük vermiş, dünya incəsənətinin mütərəqqi ənənələrini davam etdirmişdir. Görkəmli sənətkar boyakarlığın müxtəlif janrlarında çoxlu tablo, o cümlədən mənzərələr – "Otel" parkı tərəfdən Bursa görünüşü", "Anadolu sahilinin görünüşü", "Qarxana rayonu", "Sultaniyyə məscidindən bir görünüş", "Mənzərə", natürmortlar – "Gül vazası", "Natürmort", portretlər – "Qadın portreti", "Portret", "Qərəzli musiqiçi Hafizin portreti", "Zərrux xanımın portreti" və digər sənət əsərləri yaratmışdır.

Əsərləri Türkiyə, Fransa, Avstriya, ABŞ, İsveçrə və digər ölkələrdə fərdi sərgilərdə nümayiş etdirilmişdir. İbrahim Səfiyev mənzərə, portret və natürmortlarından ibarət bəzi əsərlərini Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyinə bağışlamış, bir neçə əsəri 1989-cu ildə Bakıda keçirilən "Əzizim, Vətən yaxşı..." sərgisinin ekspozisiyasına daxil edilmişdir. Əsərləri Türkiyədə və dünya muzeylərində, o cümlədən şəxsi kolleksiyalarda, R.Mustafayev adına Azərbaycan İncəsənət Muzeyində saxlanılır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Görkəmli rəssam İbrahim Səfiyevin yaradıcılığından nümunələr























*Azərbaycan xalqı XX əsrdə iki dəfə öz müstəqilliyini elan etmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə Azərbaycanın adı Şərqin və Türk dünyasının tarixinə ilk respublikanın qurulduğu ölkə kimi düşmüşdür. Lakin təəssüf ki, bu respublika cəmi 23 ay fəaliyyət göstərmiş, Azərbaycan XX əsrin sonlarında ikinci dəfə müstəqillik əldə etmişdir.*

*18 oktyabr Dövlət Müstəqilliyi Günüdür*

# Dövlət müstəqilliyimiz daimidir, əbədidir

Ötən əsrin 90-cı illərində xalqımız dövlət müstəqilliyinə nail olmuşdur. Azərbaycanın milli müstəqillik konsepsiyası isə daha əvvəl ümummilli lider Heydər Əliyev tərəfindən işlənib hazırlanmışdır. Ulu öndər sovet totalitar rejiminin tüğyan etdiyi dövrlərdə böyük uzaqgörənliklə Azərbaycanın gələcək müstəqilliyi üçün mühüm hərbi, iqtisadi, sosial, ideoloji tədbirlər həyata keçirmişdir.

Dahi şəxsiyyət 1990-cı ilin iyul ayında Naxçıvana gəldikdən sonra burada dövlət müstəqilliyi uğrunda məqsədyönlü siyasi mübarizə aparmışdır. 1990-cı il noyabrın 17-də Naxçıvan MSSR Ali Sovetinin ulu öndərin sədrliyi ilə keçirilən ilk sessiyasında Azərbaycanın müstəqilliyi baxımından son dərəcə böyük əhəmiyyətə malik olan taleyüklü qərarlar qəbul edildi. Sessiyada Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı, Naxçıvan MSSR Ali Soveti Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırıldı. Milli istiqlal rəmzi olan üçrəngli bayrağımız ilk dəfə bu sessiyanın tarixi qərarı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edildi, həmin bayrağın Azərbaycan Respublikasının rəsmi dövlət rəmzi kimi tanınması haqqında Azərbaycan SSR Ali Soveti qarşısında vəsatət qaldırıldı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasında Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edən mühüm məsələlər – 1990-cı il 20 Yanvar faciəsi və Dağlıq Qarabağ münaqişəsi də müzakirə edildi. 31 dekabrın "Dünya Azərbaycanlılarının Həmrəylik Günü" kimi qeyd olunması ilə bağlı tarixi qərar qəbul olundu. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi. Rus qoşun hissələri muxtar respublikadan çıxarıldı, Naxçıvan Muxtar Respublikasının müdafiəsi üçün sistemli tədbirlər görüldü, ölkəmizdə ilk dəfə Naxçıvanda nizami ordu hissələri yaradıldı. Bir sözlə, Naxçıvan xalqımızın müstəqillik mübarizəsinin mərkəzinə çevrildi.



Belə bir tarixi məqamda – 18 oktyabr 1991-ci ildə Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Xalqımız şərəfli mübarizə, çoxsaylı qurbanlar bahasına müstəqillik qazandı. Lakin bu, müstəqilliyi qorumaq uğrunda aparılacaq daha gərgin mübarizələrin başlangıcı idi. Təəssüf ki, müstəqilliyimizin ilkin mərhələsində – 1991-1993-cü illərdə müstəqilliyin, ərazi bütövlüyünün qorunub saxlanılması, müstəqil iqtisadi, daxili və xarici siyasətin müəyyənləşdirilməsi kimi vacib məsələlərin həlli əvəzinə, ölkədə hərcmərclik, özbaşınalıq, siyasi-iqtisadi tənəzzül baş alıb gedirdi. Xarici təcavüz, ölkə ərazisinin 20 faizinin işğalı, yüzlərlə insanın şəhid olması, qaçqın və məcburi köçkün problemləri, siyasi qarşıdurmalar son həddə çatmış, separatçı meyillər daha da güclənmişdi. Azərbaycan dünya xəritəsindən silinmək təhlükəsi qarşısında qalmışdı. Müstəqilliyimizin qorunub saxlanılması, qarşıya qoyulmuş məqsədlərə nail olmaq, milli həmrəylik və iradə nümayiş etdirmək üçün xalqı öz ətrafında sıx birləşdirə biləcək milli liderə böyük ehtiyac var idi.

1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə yenidən Azərbaycanda hakimiyyətə gələn dahi siyasətçi Heydər Əliyev ilk olaraq müstəqillik, Azərbaycançılıq ideologiyasını milli şüurda və psixologiyada, xalqın iradəsində bərqərar etməyə nail oldu, insanlarda Vətən, dövlətçilik, suverenlik, vətənpərvərlik hissiyyatları gücləndi, Azərbaycançılıq ümummilli ideologiya səviyyəsinə qaldırıldı. Azərbaycanda demokratikləşmə milli inkişafın vacib faktoru kimi dövlət siyasətinin əsas istiqamətinə çevrildi. 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi, insan hüquqlarının, söz və məlumat azadlığının, vətəndaş cəmiyyəti institutlarının formalaşdırılması və inkişafına etibarlı zəmin yarandı.

Ölkənin həyatında çox zəruri olan ictimai-siyasi sabitləşmə, demokratik prinsip və təsisatlar yaradıldı. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalanmaqla neft strategiyasının və davamlı iqtisadi inkişafın əsası qoyuldu. Xarici investisiyaların həcmi artdı, xalqın həyat səviyyəsi yaxşılaşdı. Ulu öndərin uzaqgörən siyasəti nəticəsində atəşkəsə nail olundu, torpaqlarımızın işğalının qarşısı alındı, ordu quruculuğuna başlandı.

Ölkə daxilində mövcud problemlərin tədricən aradan qaldırılması, iqtisadiyyatın inkişaf yoluna qədəm qoyması Azərbaycanın xarici siyasətdə də daha fəal, qətiyyətli addımlar atmasına şərait yaratdı. Ulu öndərin ardıcıl olaraq xarici ölkələrə səfərləri, beynəlxalq təşkilat nümayəndələri ilə keçirdiyi görüşləri nəticəsində Ermənistanın Azərbaycana təcavüzü, ölkəmizlə bağlı həqiqətlər dünya ictimaiyyətinə çatdırıldı. Ölkəmizin xarici siyasətinin əsas prinsip və istiqamətləri müəyyən edildi. Azərbaycanın beynəlxalq təşkilatlarda

*Ardı 3-cü səhifədə*

mövqeyinin möhkəmləndirilməsi, rolunun artırılması bütün dövlətlərlə qarşılıqlı maraqlara söykənən münasibətlərin inkişafını şərtləndirdi.

Bu gün ümummilli liderin siyasi irsinin layiqli varisi, ölkə başçısı cənab İlham Əliyev dövlət müstəqilliyimizi daha da möhkəmləndirərək Azərbaycanı regionun qüdrətli dövlətinə çevirmişdir. Ölkəmiz iqtisadi və demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində böyük nailiyyətlər qazanmışdır. Yeni neft strategiyasının müvəffəqiyyətlə davam etdirilməsi, Azərbaycana xarici sərmayə qoyuluşunun artması, qeyri-neft sektoruna, regionların inkişafına yönəldilən investisiyanın ilbəil çoxalması, sahibkarlığın inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi dövlət başçısının iqtisadi siyasətinin əsasını təşkil edir.

Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artmış, ümumi daxili məhsula bərabər səviyyədə valyuta ehtiyatları yaradılmışdır. Ölkə iqtisadiyyatına 250 milyard dollar sərmayə qoyulmuşdur. Sosial problemlərin uğurlu həlli nəticəsində bu gün Azərbaycanda işsizlik 5 faiz səviyyəsinə endirilmişdir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Supsa neft və qaz kəmərlərinin inşa edilməsi, "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşması, Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsi müstəqil ölkəmizin uzunmüddətli və dayanıqlı inkişaf strategiyasını təmin etmək istiqamətində atılan əhəmiyyətli addımlardır. Bu tədbirlər nəticəsində Azərbaycan bu gün Şərqlə Qərbi birləşdirən bütün optimal nəqliyyat-kommunikasiya xətlərinin, habelə neft-qaz boru kəmərlərinin keçdiyi əlverişli tranzit məkan kimi təkcə Avropa üçün deyil, həm də Uzaq Şərq üçün strateji əhəmiyyət daşıyır. Bu gün ölkəmiz bir çox beynəlxalq əhəmiyyətli tədbirlərin nümunəvi ev sahibi və təşkilatçısıdır. Avropa Şurasında, İslam Əməkdaşlıq Təşkilatında, BMT-nin Təhlükəsizlik Şurasında, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında, YUNESKO-da, digər nüfuzlu təşkilatlarda Azərbaycanın xüsusi yeri vardır.

Bu gün dinamik inkişaf yolu ilə irəliləyən Azərbaycan öz dövlət müstəqilliyini mühüm tarixi nailiyyətlərlə qeyd edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Bu gün müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir. Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir".***

Müstəqilliyin bəhrələrindən Naxçıvan Muxtar Respublikasına da xeyli pay düşüb. Son illər rayon mərkəzlərindən ucqar dağ kəndlərinədək hər yerdə aparılan genişmiqyaslı quruculuq tədbirləri, muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı, əhalinin həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşması buna parlaq sübutdur. Əgər 1 yanvar 1996-cı il tarixə muxtar respublikada 56 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, hazırda bu müəssisələrin sayı 442-yə çatdırılmışdır. Muxtar respublikada 3819,1 kilometr uzunluğunda avtomobil yolu yenidən qurulmuş, 103 körpü tikilmişdir. Elm və təhsil müəssisələri üçün 213 yeni bina inşa olunmuşdur. 481 mədəniyyət, 280 səhiyyə ocağı tikilmiş və ya yenidən qurulmuşdur. Bir rayon yaradılmış, 4 qəsəbə, 149 kənd mərkəzi istifadəyə verilmişdir. 6671 istehsal, xidmət və digər infrastruktur sahələri yaradılmışdır. 2017-ci ildə və 2018-ci ilin ötən dövründə 4461 yeni iş yeri açılmışdır ki, onların 98 faizi və ya 4371-i daimi iş yeridir.

Son 15 ildə 14 dəfə muxtar respublikaya səfər edən, 135-dən çox müxtəlif təyinatlı mühüm əhəmiyyətə malik obyektin açılışında iştirak edən ölkə Prezidenti cənab İlham Əliyev muxtar respublikaya son səfəri zamanı demişdir: ***"Heydər Əliyev siyasəti bu gün Azərbaycanda yaşayır, davam edir, əbədi yaşamalıdır və yaşayacaqdır. Biz bu siyasətin gözəl nəticələrini ölkəmizin hər yerində görürük, o cümlədən Naxçıvan Muxtar Respublikasında. Burada aparılan işlər çox yüksək qiymətə layiqdir".***

Müstəqil Azərbaycan ümummilli liderimiz Heydər Əliyevin şah əsəridir. Bu gün hər bir azərbaycanlı dövlət müstəqilliyini həm də ümummilli liderin ən dəyərli mirası olaraq göz bəbəyi kimi qorumalı, doğma Azərbaycanın inkişafı, çiçəklənməsi naminə səylə çalışmalıdır. Ümummilli lider Heydər Əliyev demişdir: ***"Müstəqilliyə nail olmaq və həyatın bir çox sahələrində köklü dəyişikliklər etmək çox çətin və məsul bir prosesdir. Müstəqilliyi elan etmək, onun qorunması və möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu, hələ azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hazır olsun".*** Bunun üçünsə, ilk növbədə, ölkəmizdə ulu öndər Heydər Əliyev siyasi xətti davam etdirilməlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Ötən hər ili göz önünə gətirəndə bir daha əmin oluruq ki, ölkəmizdə Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Bu kurs, bu yol Azərbaycanda sosial-siyasi inkişafın yeni tələblər baxımından təmin olunmasının yeganə düzgün yoludur. Bu yol ölkəmizin bu gününün, sabahının və gələcəyinin yoludur".***

**"Şərq qapısı"**



## Əhaliyə nümunəvi bank xidməti göstərilir

*Naxçıvan Muxtar Respublikasında bank sisteminin müasir tələblər səviyyəsində qurulması, yaradılan şərait əhaliyə nümunəvi xidmət göstərməyə imkan verir. Banklar və kredit təşkilatları tərəfindən muxtar respublika iqtisadiyyatına yönəldilən kredit qoyuluşunun həcmi 1 oktyabr 2018-ci il tarixə 106 milyon 297 min manat olmuşdur ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1 milyon 982 min manat artmışdır. Kredit qoyuluşu, əsasən, dövlət proqramlarının icrasına, real sektorun, kiçik və orta sahibkarlığın inkişafına yönəldilmişdir. Bu da kənd təsərrüfatı, yerli sənaye və istehlak malları istehsalının həcminin artması və yeni iş yerlərinin yaranması baxımından əhəmiyyətli olmuşdur.*

Bank və kredit təşkilatları tərəfindən bu ilin 9 ayında 39 milyon 431 min manat kredit verilmişdir ki, bunun da 4 milyon 229 min manatı qısamüddətli, 35 milyon 202 min manatı isə uzunmüddətli kreditdir. Verilmiş kreditlərin 4 milyon 530 min manatı kənd təsərrüfatı, 5 milyon 172 min manatı sənaye, 670 min manatı tikinti, 1 milyon 830 min manatı kommersiya, 521 min manatı nəqliyyat, rabitə və informasiya, 15 min manatı balıqyetişdirmə sahəsinə, 2 milyon 970 min manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditlərinin verilməsinə, 23 milyon 723 min manatı isə digər kommunal, sosial və istehlak kreditlərinin verilməsi kimi sahələrə yönəldilmişdir. Bundan başqa, kredit təşkilatları tərəfindən 128 fiziki və hüquqi şəxsə 3 milyon 115 min 600 manat dəyərində kənd təsərrüfatı texnikası üzrə lizinq xidməti göstərilmişdir.

Yanvar-sentyabr aylarında banklara 34 milyon 548 min manat kredit borcu, Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu vəsaitlərindən isə 2 milyon 961 min manat vaxtı keçmiş kredit borcları qaytarılmışdır. Muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən fiziki və hüquqi şəxslərə açılmış bank hesablarının işlək hesablara çevrilməsi istiqamətində də tədbirlər həyata keçirilmiş, 2 min 299 hüquqi, 76 min 633 fiziki şəxs olmaqla, 78 min 932 müştəriyə xidmət göstərilmişdir. Xidmət olunan hesabların 69 min 309-u işlək hesab olmuşdur ki, onların 1539-u hüquqi, 67 min 770-i fiziki şəxsdir. 2018-ci ilin yanvar-sentyabr ayları ərzində 86 hüquqi, 13 min 486 fiziki şəxs olmaqla, 13 min 572 müştəriyə yeni bank hesabı açılmışdır.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar tərəfindən bankların əməliyyat kassalarına daxil olan nağd pul hasilatını artırmaq və Mərkəzi Bankın ehtiyat fondundan dövriyyəyə buraxılan nağd pul kütləsinin artım tempinin aşağı salınması istiqamətində də işlər davam etdirilmişdir. Ötən dövrdə bankların kassa mədaxili 373 milyon 852 min manat, kassa məxarici isə 526 milyon 805 min manat olmuşdur. Muxtar respublika üzrə bankların kassa məxaricinin kassa mədaxilində xüsusi çəkisi ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,7 faiz azalmış, emissiya 29 faiz olmuşdur. Həmçinin bu dövrdə Mərkəzi Bankın ehtiyat fondundan 239 milyon 212 min manat nağd pul dövriyyəyə buraxılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"a uyğun olaraq nağdsız ödənişlərin miqyasının genişləndirilməsi, elektron ödəniş xidmətlərindən istifadə aktivliyinin artırılması üçün müvafiq tədbirlər həyata keçirilmişdir. Vətəndaşların ödəniş kartları vasitəsilə vergi və rüsumların, Dövlət Yol Polisi, pasport və şəxsiyyət vəsiqəsi alınması üçün rüsumların, gömrük rüsumlarının, Dövlət Sosial Müdafiə Fondu və onun yerli şöbələrinə sosial sığorta haqlarının, mobil və stasionar telefonların abunə və danışıq xərclərinin ödənilməsinin elektron ödəniş formasında aparılması təmin edilmişdir. Nağdsız hesablaşmaların həcminin artırılması məqsədilə Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən mütəmadi olaraq kütləvi informasiya vasitələrində maarifləndirmə işləri aparılmışdır. Bununla yanaşı, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin, Naxçıvan Muxtar Respublikası Maliyyə və Vergilər nazirliklərinin, "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin, "Naxtel" və "Mastercard" şirkətlərinin nümayəndələrinin iştirakı ilə seminar-treninq keçirilmişdir. Bu tədbirin davamı olaraq qlobal ödəniş texnologiyalarının lideri olan "Mastercard" şirkəti tərəfindən cari ilin may ayında pilot olaraq seçilmiş Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödənişlərdən istifadənin stimullaşdırılması məqsədilə "Cahan" AVM-də istehlakçılar üçün stimullaşdırıcı kampaniyalara başlanmışdır.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin və Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin əməkdaşlarının iştirakı ilə ticarət, iaşə və digər xidmət müəssisələrində quraşdırılmış POS-terminallardan müştərilərlə hesablaşmaların ödəniş kartları vasitəsilə aparılmasının monitorinqi keçirilmiş, nağdsız əməliyyat aparmayan `sahibkarlarla xüsusi maarifləndirici görüşlər təşkil edilmiş, müvafiq tövsiyələr verilmişdir. Eyni zamanda Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin və Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi əməkdaşlarının birgə iştirakı ilə muxtar respublikanın təhsil və səhiyyə müəssisələrində çalışan ödəniş kartı istifadəçiləri ilə görüşlər keçirilmiş, onlara ödəniş kartlarından istifadənin üstünlükləri barədə məlumatlar verilmişdir.

Əhalinin nağdsız ödənişlərə marağının artırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi ilə birgə mükafatlandırma tədbirləri keçirilmiş və cari ilin ötən dövründə 312 fiziki şəxsə 20 min manat dəyərində müxtəlif qiymətli hədiyyələr verilmişdir. Həmçinin ticarət, iaşə və digər xidmət müəssisələrində müştərilərlə hesablaşmaların ödəniş kartları vasitəsilə aparılması üçün POS-terminalların quraşdırılması işi davam etdirilmiş və mövcud POS-terminalların sayı 1270-ə çatdırılmışdır. Görülən işlərin nəticəsidir ki, POS-terminallar və digər ödəniş vasitələri ilə aparılan nağdsız əməliyyatların həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 3 milyon 210 min manat artaraq 26 milyon 325 min manat olmuşdur.

Vətəndaşlara müasir bank xidmətinin göstərilməsi məqsədilə muxtar respublikada 5 yeni bankomat quraşdırılmış, 55-i Naxçıvan şəhərində, 54-ü isə rayon və kənd mərkəzlərində olmaqla, bankomatların sayı 109-a, ödəniş terminallarının sayı isə 23-ə çatdırılmışdır. Ödəniş terminallarında smarttipli kartların xidmət haqlarının ödənilməsi funksiyası aktiv edilmişdir. Muxtar respublikada ödəniş kartlarının sayında da artım müşahidə edilmişdir. Belə ki, muxtar respublika üzrə əməkhaqqı, pensiya və fərdi ödəniş kartı alanların sayı ötən ilin müvafiq dövründə 257 min 409 idisə, hazırda elektron ödəniş kartı alanların sayı 269 min 304-ə çatmışdır. Nağdsız hesablaşmalara keçidlə əlaqədar olaraq büdcə və büdcədənkənar xərclərin ödənilməsi də hüquqi şəxslərə verilən korporativ kartlar vasitəsilə həyata keçirilir.

Muxtar respublikada fəaliyyət göstərən 17 bank qurumunun hamısında təcili pul köçürmələri sistemi fəaliyyət göstərir. 2018-ci ilin yanvar-sentyabr aylarında təcili pul köçürmələri vasitəsilə dünyanın 40-dan çox ölkəsindən muxtar respublika vətəndaşlarının adına 4 milyon 865 min ABŞ dolları məbləğində pul köçürülmüş və banklar vasitəsilə ödənilmişdir. 2018-ci il oktyabrın 1-nə muxtar respublikada fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin həcmi 6 milyon 655 min manat olmuşdur ki, bunun da 5 milyon 172 min manatını milli valyutada, 1 milyon 483 min manatını isə xarici valyutada olan əmanətlər təşkil edir. Banklara qoyulan əmanətlərin həcmini ötən ilin müvafiq dövrü ilə müqayisə etdikdə manatla olan əmanətlərin həcmində 643 min manat artım, xarici valyuta ilə olan əmanətlərdə isə 1 milyon 7 min manat azalma müşahidə edilməkdədir. Bu isə öz növbəsində, əhalinin manata qarşı olan inamının əsas göstəricisidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli Sərəncamına əsasən Naxçıvan Dövlət Texniki Kollecinin Bank işi ixtisası Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi tərəfindən hamiliyə götürülmüşdür. Bununla yanaşı, "Naxçıvan" Universiteti və Naxçıvan Dövlət Texniki Kollecində yaradılmış Bank işi kabinetləri müxtəlif bank vəsaitləri ilə təmin edilmişdir. Hamiliklə əlaqədar Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşları tərəfindən yeni tədris ilində hər iki təhsil ocağının tələbələri ilə müxtəlif mövzularda seminar-məşğələlər keçirilmişdir.

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsi bundan sonra da qarşıya qoyulan vəzifələrin icrasını diqqətdə saxlayacaq.

**Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin İqtisadi təhlil və statistika şöbəsi**

## Dövlət Müstəqilliyi Günü qeyd olunub



***Naxçıvan Dövlət Universitetində 18 oktyabr – Dövlət Müstəqilliyi Gününə həsr olunmuş "Müstəqilliyimiz əbədidir" adlı konfrans keçirilib.***

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsindən sonra konfransı giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq müstəqilliyin ilk illərində Azərbaycan xalqının üzləşdiyi çətinliklərdən danışıb.

Bildirilib ki, dövlət müstəqilliyimiz 1991-1993-cü illərdə süquta uğramaq təhlükəsi ilə üz-üzə qalanda məhz ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkəmiz parçalanmaq, məhv olmaq təhlükəsindən xilas olub, ictimai-siyasi, sosial-iqtjisadi, elmi-mədəni həyatda köklü islahatlara, dövlət quruculuğu prosesinə başlanılıb. Ulu öndərin siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsindən bəhs edən rektor Dövlət Müstəqilliyi Günü münasibətilə müəllim və tələbələri təbrik edib.

Türkiyə Cümhuriyyətinin Ankara şəhərindəki Qazi Universitetinin professoru Cengiz Taplamacıoğlu, Çankırı Karatekin Universitetinin prorektoru Kamil Arı hər iki ölkə arasında qardaşlığı yüksək qiymətləndirərək "Bir millət, iki dövlət" olduqlarının müasir dövlətlərarası siyasi münasibətlərdə dolğun reallaşdığını dilə gətiriblər.

Tarix müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Murad Muradov ümummilli lider Heydər Əliyevin gənclər siyasətindən danışıb, onlara göstərdiyi qayğıdan söhbət açıb.

Sonra müstəqillik tariximizi özündə əks etdirən film nümayiş olunub, konsert proqramı təqdim edilib.

Tədbirdən sonra Çankırı Karatekin Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında qarşılıqlı əlaqələrə dair ikitərəfli görüş keçirilib. Görüşdə universitetlərarası müqavilə imzalanıb.

**Səadət ƏLİYEVA**

## Dünya şöhrətli alimin 90 illik yubileyi qeyd olunub



***AMEA Naxçıvan Bölməsində görkəmli alim, Əməkdar elm və texnika xadimi, Dövlət mükafatı laureatı, akademik Azad Mirzəcanzadənin anadan olmasının 90 illik yubileyinə həsr olunan tədbir keçirilib.***

Tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq Prezident cənab İlham Əliyevin "Akademik Azad Mirzəcanzadənin 90 illik yubileyi haqqında" 2018-ci il 6 iyul tarixli Sərəncamının əhəmiyyətindən, görkəmli alimin elmi xidmətlərindən danışıb.

"Akademik Azad Mirzəcanzadə və Azərbaycanda yüksəkixtisaslı elmi kadrların hazırlanması" mövzusunda məruzə ilə çıxış edən bölmə sədri bildirib ki, alim neft-qaz mexanikası sahəsində bütöv bir elmi istiqamət yaradıb. Həmçinin neft-qaz yataqlarının dinamik analizi ilə bağlı sanballı elmi məqalələr, kitab və monoqrafiyalar hazırlayıb. Görkəmli alim 500-ə yaxın elmi məqalənin, 100-ə yaxın monoqrafiya, dərslik, dərs vəsaitinin, 50-dən çox ixtira və patentin müəllifidir.

Vurğulanıb ki, Azad Mirzəcanzadənin rəhbərliyi altında 300-dən çox elmlər namizədi, 120 elmlər doktoru hazırlanıb. Onun yetirmələri bu gün Azərbaycanla yanaşı, Rusiya, ABŞ, Vyetnam, Almaniya və digər xarici ölkələrdə yüksəkixtisaslı kadrlar kimi fəaliyyətlərini davam etdirirlər.

Qeyd olunub ki, dünya şöhrətli alim müxtəlif illərdə Rusiya Təbii Elmlər Akademiyası, Başqırdıstan Elmlər Akademiyası, Ukrayna Neft-Qaz Akademiyasının həqiqi üzvü seçilib. İki dəfə Azərbaycan Dövlət mükafatı laureatı, o cümlədən üç dəfə Akademik İ.M.Qubkin adına mükafat laureatı olub. P.Kapitsa adına medala, Vyetnam Respublikasının "Vyetnamın Qəhrəmanı" qızıl ulduzuna, həmçinin Azərbaycan Respublikasının "İstiqlal" ordeninə layiq görülüb.

Sonra bölmənin Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əliəddin Abbasovun "Akademik Azad Mirzəcanzadənin həyat yolu və elmi fəaliyyəti", Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbovun "Akademik Azad Mirzəcanzadənin dünya şöhrəti" mövzularında məruzələri dinlənilib.

Sonda AMEA-nın müxbir üzvləri Əbülfəz Quliyev və Fəxrəddin Səfərli çıxış edərək alimin Azərbaycan elminin inkişafındakı xidmətlərindən danışıblar.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Universitet əməkdaşları Akare təhsil sərgisində iştirak ediblər

Bu günlərdə "Naxçıvan" Universitetinin tədris və tərbiyə işləri üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rəcəb Cəfərli Türkiyə Respublikasının İstanbul şəhərində təşkil edilən təhsil sərgisində iştirak ediblər.

Məlumat üçün qeyd edək ki, Türkiyənin Akare təhsil sərgiləri firmasının təşkilatçılığı ilə keçirilən sərgiyə dünyanın 32 ölkəsinin 80-dən çox universitet və təhsil agentlikləri qatılıb. Sərgidə iştirak edənlər "Naxçıvan" Universitetinin tanıtımı üçün hazırlanmış videoçarxa baxıb və ali məktəb haqqında geniş məlumat əldə ediblər. Bundan başqa, sərgi iştirakçılarına universitetin kataloq və broşürləri də paylanılıb. Onu da bildirək ki, sərgidə müxtəlif təhsil agentlikləri ilə görüş də keçirilib, universitetə tələbə cəlbi və bu istiqamətdə agentliklə əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.

**Nuray ƏSGƏROVA**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 13 noyabr 2018-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | 7308 kvadratmetr torpaq sahəsində yerləşən 2368,3 kvadratmetr ümumi, 2224,4 kvadratmetr əsas,143,9 kvadratmetr köməkçi sahədən ibarət müəssisə (istehsal sexi və ofis) | Naxçıvan şəhəri, "Azərbaycan" küçəsi | 3 600 000 | 180 000 |
| 2. | 16182 kvadratmetr torpaq sahəsində yerləşən 2505,8 kvadratmetr ümumi, 120,0 kvadratmetr əsas, 2385,8 kvadratmetr köməkçi sahədən ibarət müəssisə (şüşə sexi və anbarlar) | Naxçıvan şəhəri, C.Məmmədquluzadə küçəsi | 1 800 000 | 90 000 |
| 3. | 35025 kvadratmetr torpaq sahəsində yerləşən 374,7 kvadratmetr ümumi, 256,5 kvadratmetr əsas,118,2 kvadratmetr köməkçi sahədən ibarət müəssisə (qum, çınqıl xətti və beton məmulatları kompleksi) | Babək qəsəbəsi, Araz çayı qovşağının 3 kilometrliyində | 1 870 000 | 93 500 |
| 4. | 7308 kvadratmetr torpaq sahəsində yerləşən 1397,3 kvadratmetr ümumi, 1311,5 kvadratmetr əsas, 85,8 kvadratmetr köməkçi sahədən ibarət müəssisə (ofis binası, dülgər və boya sexləri) | Naxçıvan şəhəri, "Azərbaycan" küçəsi | 720 000 | 36 000 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5 faizi məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki İcra Məmurlarının Xüsusi Vəsaitlər Fonduna 8 noyabr 2018-ci il tarixədək ödənilməlidir. Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakların sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- ödəniləcək behin qəbzi;*

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 13 noyabr 2018-ci il tarixdə, saat 11[00]-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcəkdir.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***

***Əlaqə telefonu: 545-01-38***

## "Müstəqil Azərbaycan" adlı rəsm sərgisi açılıb

*Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda 18 oktyabr – Dövlət Müstəqilliyi Gününə həsr edilmiş "Müstəqil Azərbaycan" adlı rəsm sərgisinin açılışı olub.*



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edib. O, əlamətdar gün münasibətilə tədbir iştirakçılarını təbrik edərək vurğulayıb ki, ulu öndər Heydər Əliyev özünün zəngin siyasi təcrübəsi və yüksək idarəçilik bacarığı nəticəsində Azərbaycanın müstəqilliyini əbədi və dönməz edib.

Bildirilib ki, görkəmli dövlət xadiminin Azərbaycanın zəngin mədəniyyətinin inkişafına və təbliğinə yönəlmiş müdrik siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən yeni müstəvidə uğurla davam etdirilir.

Xalq rəssamı Hüseynqulu Əliyev "Müstəqillik dövründə rəssamlara göstərilən qayğı", Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həmzə Sadiqov "Həmin illərdən xatirələr" adlı mövzularda çıxış ediblər.

Bildirilib ki, Naxçıvan böyük elm və sənət korifeylərinin, görkəmli memar, rəssam və siyasətçilərin, dövlət xadimlərinin Vətəni kimi Şərq intibahına və ictimai fikir tarixinə özünün layiqli töhfələrini verib. Ulu öndər Heydər Əliyev hakimiyyətdə olduğu ilk dövrdə Azərbaycan rəssamlıq məktəbi yüksək inkişaf yolu keçib. 1971-ci ilin iyun ayında ümummilli liderimiz Naxçıvan Rəssamlar Təşkilatının yaradılmasına hazırlıq işlərinin tamamlanması barədə hökumət strukturlarına bir sıra göstərişlər verib. Elə həmin ildən Azərbaycan Rəssamlar İttifaqı Naxçıvan Təşkilatı fəaliyyətə başlayıb. Rəssamlıq sahəsinə göstərilən diqqət müstəqillik illərində də davam etdirilib. Dəyərli əsərlər yaradılıb, rəssamlar respublika səviyyəsində mükafatlandırılıb, bir sıra dövlət mükafatlarına və fəxri adlara layiq görülüblər.

Çıxışlardan sonra sərgiyə baxış olub.

Qeyd edək ki, ekspozisiyada 18 rəssamın 45 rəsm əsəri sərgilənir. Paşa Rəhimovun "Ümummilli lider Heydər Əliyev", Sabir Məmmədovun "Kompozisiya", Səyyad Bayramovun "Tarixi yaşadan torpaq", Qəhrəman Tağıyevin "Sevimli məkan" və digər əsərlər maraqla qarşılanıb.

Sərgi oktyabr ayının 22-dək davam edəcək.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Gənclərin əsgərlərlə görüşü keçirilib



***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Mədəniyyət nazirlikləri və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasında gənclərin əsgərlərlə görüşü təşkil edilib.***

18 oktyabr – Dövlət Müstəqilliyi Günü münasibətilə keçirilən görüşün məqsədi gənclərə vətənpərvərlik hissinin aşılanması, çağırışyaşlı gənclərin hərbi xidmətə hazırlanması, onların Vətənə məhəbbət, dövlətə sədaqət ruhunda tərbiyə olunması və əsgərlərdə ruh yüksəkliyinin artırılmasından ibarət olub.

Görüşdə Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Tahir Məmmədli, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının zabiti, kapitan Orxan Seyidov çıxış edərək tədbirin əhəmiyyətindən danışıblar.

Bildirilib ki, Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadası müasir maddi-texniki bazası, yüksək döyüş qabiliyyəti ilə seçilir. Son illər briqadanın ərazisində müasir standartlara uyğun yaşayış binaları, yeməkxana, anbarlar, müasir qazanxanalar və digər sosial-məişət obyektləri inşa edilib, hərbi hissə abad və yaraşıqlı bir şəhərciyə çevrilib. Bu gün şəxsi heyətin geyimi, qidalanması, yaşayış və məişət şəraiti diqqət mərkəzində saxlanılır. Bütün bunlar şəxsi heyətin mənəvi-psixoloji vəziyyətini daha da yüksəldir.

Sonra gənclərin silah-sursat və texnikaya baxışı olub. Onlar briqadanın ərazisində yerləşən əsgər yataqxanası, tibb məntəqəsi, təlim-tədris mərkəzi, klub, idman zalı və kitabxana ilə də tanış olublar.

Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının konserti, eyni zamanda gənclərin səsləndirdikləri şeirlər alqışlarla qarşılanıb.

Sonda gənclər əsgər yeməkxanası ilə tanış olub, əsgərlərlə birlikdə nahar ediblər.

Qeyd edək ki, görüşdən öncə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin sosial şəbəkələrdəki rəsmi səhifələrində qeydiyyat aparılıb və məhz qeydiyyatdan keçən həmin gənclər tədbirdə iştirak ediblər.

**✍ Ceyhun MƏMMƏDOV**

## İdmançılarımız Azərbaycan çempionatında 2 medal qazanıblar

Qusar rayonunda kross qaçışı üzrə Azərbaycan çempionatı keçirilib.

Çempionatda Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının iki idmançısı da mübarizə aparıb. Hər iki idmançımız uğurlu nəticələr qazanıb. Belə ki, 6 kilometr məsafədə Əmrah Nağıyev bütün rəqiblərini qabaqlayaraq Azərbaycan çempionu adına layiq görülüb. Digər idmançımız Səfər Tağıyev isə 3 kilometr məsafədə finiş xəttini ikinci yerdə başa vurub.

İdmançılarımız təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 767